**Knyaz Aslan**
**Vahid Ömərli**

# BU DÜNYAYA NƏ GƏTİRDİM…

***HAMLET İSAYEV (İSAXANLI)***

# ЧТО В ЭТОТ МИР ПРИНЕС Я…

***ГАМЛЕТ ИСАЕВ (ИСАХАНЛЫ)***

Xəzər Universitəsi Nəşriyyatı

Bakı – 2005

©Khazar University Press, 2005
**ISBN 9952-20-032-3**

Redaktor:
*Camal Mustafayev*

Rus mətni üzərində işləyənlər:
*Camal Mustafayev*
*Tofiq Abasquliyev*
*Tatyana Zaytseva*
*Lyudmila Sotova*
*Aytən Zərgərova*
*Nigar Səfərova*

Rəssam:
*Mir Rafiq Əbdülrəhimov*

Kompüter tərtibatçıları:
*Zakir N.Yusifoğlu*
*Anar Şabanov*

Korrektor:
*Cabir Məmmədli*

Knyaz Aslan, Vahid Ömərli.
«Bu dünyaya nə gətirdim… Hamlet İsayev (İsaxanli)»:
(Azərbaycan və rus dillərində). –
Bakı: Xəzər Universitəsi Nəşriyyatı, 2005. -80 s.
**ISBN 9952-20-032-3**
1. İsayev (İsaxanlı) Hamlet, 1948-
2. Alim – Bioqrafiya
3. İctimai xadim – Bioqrafiya
920.04754-dc22

*Kitabda dünya şöhrətli ensiklopedik alim, tanınmış elm və təhsil qurucusu, istedadlı şair, görkəmli ictimai xadim, Xəzər Universitəsinin rektoru, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsayevin (İsaxanlının) həyat və fəaliyyətinin əsas məqamları öz əksini tapmışdır.*

*В этой книге отражены основные черты жизни и деятельности известного во всем мире ученого-энциклопедиста, организатора науки и образования, талантливого поэта, выдающегося общественного деятеля, ректора Университета Хазар, доктора физико-математических наук, профессора Гамлета Исаева (Исаханлы).*

This book explores major aspects of the life and activities of the world-known encyclopedic scholar, distinguished academic and educator, talented poet, and eminent public figure Khazar Univesity President doctor of mathematics professor Hamlet Isayev (Isaxanli).

***Dünyada elə şəxsiyyətlər var ki, onların bənzərsiz həyat və fəaliyyəti öz zənginliyinə görə saysız-hesabsız insanların ömür yolundan seçilir.***

***Fitri istedada malik olan, Tanrı vergisinə layiq görülən belə insanlar bir ömürdə sanki bir neçə ömür yaşayır, məşğul olduqları bütün sahələrdə uğurlar qazanır, özündən sonra gələn nəsillər üçün örnəyə çevrilir və qədirbilən insanların qəlbində özlərinə mənəvi abidə ucaltmağı bacarır.***

***Öz fəaliyyəti boyunca qazandığı elmi nailiyyətləri, maarifçiliyi və bədii yaradıcılığı, humanist insani keyfiyyətləri, tükənməz qurub-yaratmaq eşqi, sözü, əməli və ziyalılığı ilə geniş ictimaiyyətin dərin hörmət və məhəbbətini qazanmış belə nadir şəxsiyyətlərdən biri professor Hamlet İsayevdir (İsaxanlıdır).***

***В мире существуют такие личности, чьи неповторимые жизнь и деятельность отличаются от жизненного пути бесчисленного множества других.***

***Обладающие врожденным талантом, наделенные божественным даром, они за свою одну жизни проживают целую вереницу жизней. Такие люди во всех сферах деятельности достигают славных успехов, становятся образцами подражания для потомков, оставляют добрую память в их сердцах.***

***К числу таких редких личностей относится профессор Гамлет Исаев (Исаханлы), заслуживший искреннюю симпатию широкой общественности за высокие научные достижения, плодотворную просветительскую деятельность, вдохновенное поэтическое творчество и прекрасные человеческие качества.***

# İÇINDƏKILƏR

Professor Hamlet İsayev (İsaxanlı) .............................. 7
Ömür yolu. Qısa xronika ............................................ 8
Elm və təhsil qurucusu ............................................... 11
Riyaziyyatçı alim ........................................................ 15
Şair və tərcüməçi ....................................................... 19
Humanitar və sosial elmlər üzrə tədqiqatçı ................. 27
Redaktorluq fəaliyyəti ................................................ 29
Beynəlxalq fəaliyyət ................................................... 31
Xalq arasında. İnsani keyfiyyətlər ............................... 33
Xeyriyyəçilik .............................................................. 37
Nəsil. Ailə .................................................................. 40
Hamlet İsayev (İsaxanlı) haqqında əsərlər ................... 41
*Yazılanlardan seçmələr* ....................................... *42*

# СОДЕРЖАНИЕ

Профессор Гамлет Исаев (Исаханлы) ..................... 73
жизненный путь. Краткая хроника ............................ 74
Организатор науки и образования ............................ 77
Учёный-математик .................................................... 81
Поэт и переводчик ..................................................... 86
Исследователь в области гуманитарных и
социальных наук ............................................. 94
Редакторская деятельность ...................................... 96
Международная деятельность .................................. 98
Человеческие качества ............................................. 100
Благотворительная деятельность ............................. 103
Род. Семья ................................................................ 106
Произведения о Гамлете Исаеве (Исаханлы) ........... 108
*Избранное из написанного* ............................ 109

# PROFESSOR HAMLET İSAYEV (İSAXANLI)

- Müasir dünyanın ən məşhur elm-təhsil təşkilatçılarından biri
- Dünyada tanınmış riyaziyyatçı alim
- Humanitar və sosial elmlər üzrə görkəmli tədqiqatçı
- Şerləri dünyanın bir çox dillərinə tərcümə olunmuş istedadlı şair
- Poetik tərcümələr müəllifi
- Yüzlərlə məqalənin, çoxsaylı monoqrafiya və dərsliklərin müəllifi
- Bir sıra elmi və kütləvi jurnalların, məcmuə, monoqrafiya, dərslik və lüğətlərin redaktoru
- Beynəlxalq aləmdə Azərbaycanı tanıtdıran
- Azərbaycan lobbisinin yaranması yolunda əməyini əsirgəməyən vətəndaş
- Azərbaycan mədəniyyətinin inkişafına və təbliğinə töhfələr verən şəxs
- Xeyriyyəçi və insani keyfiyyətləri ilə ümumxalq hörməti qazanan ziyalı
- İdman təşkilatçısı
- Böyük maarifçi
- Heç bir siyasi partiyanın üzvü olmayan
- Xalqı və vətəni düşünən,
- Ədalət və həqiqəti hər şeydən üstün tutan mübariz insan
- İntibah dövrünə xas olan universal yaradıcı humanist...

# ÖMÜR YOLU. QISA XRONIKA

**Hamlet Abdulla oğlu İsayev (İsaxanlı) 1948-ci il martın 1-də ulu Borçalı mahalının Qarayazı bölgəsində – Gürcüstan Respublikası Qardabani rayonunun Kosalı kəndində dünyaya göz açıb.**

1965-ci ildə orta məktəbi ***Qızıl medalla*** bitirib.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) mexanika-riyaziyyat fakültəsini ***Fərqlənmə diplomu*** ilə başa vurub.

1970-1973-cü illərdə M.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasında təhsil alıb.

1973-cü ildə ***fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi***nə layiq görülüb. Azərbaycanın ən gənc və istedadlı alimlərindən biri kimi qısa zamanda keçmiş Sovetlərdən kənarda da yaxşı tanınıb.

1973-1988-ci illərdə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda, Moskva Dövlət Universitetində, Azərbaycan Dövlət Universitetində və SSRİ EA V.A.Steklov adına Riyaziyyat İnstitutunda ardıcıl tədqiqatlar aparıb, ***riyaziyyatın bir çox sahələrində fundamental nəticələr*** alıb.

1983-cü ildə Moskvada, riyaziyyatın Məkkəsi adlanan SSRİ EA V.A.Steklov adına Riyaziyyat İnstitutunda doktorluq dissertasiyası müdafiə edib, ***fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi***nə layiq görülüb.

1990-1991-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin sərəncamına əsasən Bakıda İngilisdilli Universitetin yaradılması üçün hazırlıq işləri aparıb, ***Xəzər Universitetini təsis edib*** və bu günə kimi onun rektorudur.

***Müxtəlif qitələrdə, 40-dan çox ölkədə*** beynəlxalq konfrans və simpoziumlarda maraqlı elmi məruzələrlə çıxış

edib, işləyib, özünü geniş diapazonlu riyaziyyatçı alim, sosial və humanitar elmlər, təhsil tarixi və nəzəriyyəsi üzrə görkəmli mütəxəssis kimi təsdiqləyib.

200-dən artıq elmi məqalənin, riyaziyyat, təhsil, dilşünaslıq üzrə monoqrafiya və dərsliklərin, müxtəlif dillərdə nəşr olunmuş şeir kitablarının ***müəllifi***dir.

1997-ci ildən bu günə qədər Xəzər Universiteti ***İdman Klubu***nu – super liqada futbol klubu (1999-2004), super liqada basketbol klubu (1999- indiyə qədər), şahmat klubunu (2005) yaratmışdır.

2005-ci ilin mayında yeni təşkil olunmuş Azərbaycan Respublikası Prezidenti yanında ***Təhsil Komissiyası***nın üzvü təyin edilmişdir.

***Professor Hamlet İsayev (İsaxanlı) elm, təhsil və yaradıcılıq sahələrində qazandığı uğurlara görə bir çox mükafatlara layiq görülüb, məşhur beynəlxalq qurumlara üzv seçilib:***

**1994** Elmi-tədqiqat və təhsil sahəsində xidmətlərinə görə Yusif Məmmədəliyev mükafatı laureatı

**1995** Beynəlxalq «Qlobal Keyfiyyət Menecmenti» (London) mükafatı laureatı

**1995** Amerika İctimai İdarəetmə Cəmiyyətinin üzvü

**1996** **- indiyə qədər** Azərbaycan Respublikası Rektorlar Şurasının həmsədri

**1997** **- 1999** Avro-Asiya Fondu (ABŞ) Qafqaz Direktorlar Şurasının üzvü

**1998** **- 2002** Açıq Cəmiyyət İnstitutu (Soros fondu), Azərbaycan. İdarə Heyətinin üzvü

**1999** **- 2004** «Xəzər Universiteti» futbol komandasının prezidenti

**2000** **- indiyə qədər** Azərbaycan Futbol Federasiyaları Assosiasiyası İcraiyyə Komitəsinin üzvü

**2001** **- indiyə qədər** Azərbaycan Özəl Universitetlər Assosiasiyasının prezidenti

**2002** Əsası iki dəfə Nobel mükafatçısı L.Polinq tərəfindən qoyulmuş Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü - akademiki seçilib

**2004** «Qızıl Qələm» mükafatı laureatı;

**2005** «Səməd Vurğun» mükafatı laureatı

**2005** Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü - akademiki seçilib

**2005** Azərbaycan Prezidenti yanında Təhsil Komissiyasının üzvü

# ELM VƏ TƏHSIL QURUCUSU

Professor Hamlet İsayev (İsaxanlı) 1990-91-ci illərdə **keçmiş SSRİ-də ilk özəl və ilk ingilisdilli universitet - Xəzər Universitetini** yaradıb, onu beynəlxalq aləmdə tanıdıb.

Professor Hamlet İsayevin (İsaxanlının) yaratdığı Xəzər Universiteti təbiət elmləri və mühəndislik, iqtisadiyyat və idarəetmə, hüquq, tibb, sosial-siyasi və humanitar elmlər sahəsində yüksək səviyyəli mütəxəssislər yetişdirməyi qarşısına məqsəd qoyan, verdiyi məzunluq diplomlarının beynəlxalq miqyasda tanınmasına nail olan mühüm elmi mərkəz və ali təhsil məbədidir.

Bu universitetə səliqə-sahman, təmizlik, yüksək mədəniyyət, yüksək tələb, ciddilik, nümunəvi nizam-intizam xasdır.

Son beş ildə Avropada gedən və Bolonya prosesi adlanan təhsil və tədris ideyalarını Hamlet İsayev (İsaxanlı) 1991-ci ildən, yəni **Avropadan əvvəl (!) Azərbaycanda** Xəzər Universitetində tətbiq etməyə başlayıb! İndi Xəzər Universiteti Azərbaycanın bütün ali məktəblərindən fərqli keyfiyyət və müasirlik, dünyəvilik və vətənpərvərlik ocağı və cazibə mərkəzidir.

Tələbələr elmi düşüncə, oxuyub-öyrənmək həvəsi, yenilik ab-havası, sağlam mühit, idman, musiqi, bir sözlə, zəngin tələbə dünyası ilə əhatə olunublar.

Yarandığı 15 il ərzində Xəzər Universiteti elm və təhsil sahəsində böyük nailiyyətlər qazanıb və beynəlxalq aləmdə tanınıb. «Xəzər» yeganə ali məktəbimizdir ki, dünyanın bir çox universitetləri ilə diplomların qarşılıqlı tanınması haqqında müqavilə bağlayıb.

Xəzər Universitetinin məzunları ölkəmizdə və bütün qitələrdə yüksək maaşlı nüfuzlu vəzifələrdə çalışır, yüzlərlə tələbəsi dünyanın müxtəlif qabaqcıl ali məktəblərində təhsillərini davam etdirir. Nəinki məzunlar, hətta yuxarı kurs tələbələri də aparıcı şirkətlərin diqqət mərkəzindədir, bu tələbələrin də böyük əksəriyyəti işləyir. Ali məktəbin gücü bu deyilmi?

Yüzlərlə xarici ölkə mütəxəssisləri Xəzər Universitetində işləyib və indi də işləyir.

Xəzər Universiteti Nəşriyyatında çoxsaylı kitablar, jurnallar, tərcümə topluları dərc olunur, beynəlxalq aləmdə yayılır, təmsil etdiyi ali təhsil ocağına və Azərbaycana hörmət qazandırır.

Professor Hamlet İsayev (İsaxanlı) üçdilli (Azərbaycan, ingilis, rus dillərində) «Azərbaycan Araşdırmaları», «Azərbaycan Arxeologiyası», «Xəzər Riyaziyyat» elmi və «Xəzər Xəbər» elmi-kütləvi və ədəbi-bədii jurnallarının təsisçisi və baş redaktoru kimi səmərəli fəaliyyət göstərir.

Professor Hamlet İsayev (İsaxanlı) ölkəmizdə və xaricdə çoxsaylı konfrans, simpozium, seminarların təşkilatçısı olub və orada məruzəçi kimi çıxış edib.

Gəncliyin cazibə mərkəzi olan Xəzər Universitet yarandığı gündən həm də mədəniyyət, incəsənət və idman ocağıdır.

Professor Hamlet İsayevin (İsaxanlının) rəhbərliyi ilə ardıcıl olaraq milli ədəbiyyat və mədəniyyətimizin nəhəng simaları haqqında aparılmış sanballı elmi tədqiqatlar, klassiklərimizin və müasir sənət adamlarımızın həyat və yaradıcılıqlarına həsr olunmuş və yüksək səviyyədə təşkil edilmiş yaddaqalan təqdimatlar və elmi toplantılar, görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərimizin iştirakı ilə keçirilmiş unudulmaz görüşlər, milli və beynəlxalq rəqslər, muğam və

klassik musiqi gecələri bu ali təhsil ocağını sözün həqiqi mənasında qədirbilən ziyalılarımızın böyük həvəslə üz tutduqları müqəddəs ziyarətgaha çevirmişdir.

Xəzər Universitetinin peşəkar futbol, basketbol, şahmat komandaları müxtəlif miqyaslı idman yarışlarında mühüm uğurlar qazanıb və bu ali təhsil müəssisəsinin adını daha da şərəfləndirib.

Xəzər Universitetinin Azərbaycanda və xaricdə məşhur olan Mahnı və Rəqs Ansamblı Avropada, Gürcüstanda, Türkiyədə və ərəb ölkələrində təşkil olunmuş festivallarda uğurla çıxış edib, ölkəmizə mükafatlarla qayıdıb.

**Xəzər Universitetinin artıq İranda filialı açılıb və Hindistanda filialı açılmaq üzrədir!**

Bütün bu faktlar haqlı iftixar hissi doğurur.

Hamlet İsayev (İsaxanlı) öz sözünü təkcə ali təhsil sistemində deyil, orta təhsil sistemində də demiş bir təhsil qurucusudur. O, orta təhsil sahəsindəki ideyalarını **1998-ci ildə Xəzər Universitetinin nəzdində yaratdığı «Dünya» məktəbi**nin simasında həyata keçirməkdədir.

Elm və təhsil sahəsindəki müstəsna xidmətlərinə görə Hamlet İsayev (İsaxanlı) beynəlxalq aləmdə ən yüksək mükafatlara layiq görülmüş, ölkəmizdə təhsil strategiyasını hazırlamaq və həyata keçirmək məqsədi ilə yaradılmış Azərbaycan Prezidenti yanında Təhsil Komissiyasına üzv seçilmişdir.

***Tadeuş SVİETOÇOVSKİ,***
***professor, tarixçi (ABŞ):***

*«Xəzər Universitəsinin ab-havası olduqca xoşuma gəlir. O, mənə əsas xüsusiyyəti daimi axtarışda olan və buna görə daimi dəyişmədə olan Amerika universitələrini xatırladır».*

***Tomas YANQ,***
***Böyük Britaniyanın Azərbaycandakı səfiri:***

*«Xəzər Universitəsinin öz potensial imkanlarını həyata keçirməsinə çox şadam. «Xəzər» Azərbaycanda özəl universitə kimi çox nüfuz qazanmışdır, Azərbaycanın bütün universitələri arasında ən qabaqcılıdır».*

***Ercan QURBANOV,***
***doktor, Merilend Universitəsi (ABŞ):***

*«Məşhur və çox hörmətli Xəzər Universitəsi yüksək keyfiyyətli təhsil və elm standartlarına uyğun, müstəqil təhsil sisteminin önündə gedən bir bayraqdardır».*

***Misir MƏRDANOV,***
***professor, Azərbaycan Respublikasının Təhsil Naziri:***

*«Xəzər Universiteti bu gün həm Azərbaycanda, həm də Azərbaycandan kənarda özünəməxsus yeri olan, özünün xüsusi çəkisi olan bir ali təhsil müəssisəsidir».*

***Hafiz PAŞAYEV,***
***Azərbaycanın ABŞ-dakı səfiri:***

*«İlk özəl ali təhsil məktəbi kimi təsis edilmiş Xəzər Universitəsi artıq özünə möhkəm yer etmiş, Azərbaycanın məşhur, tarixi zəngin olan universitələri sırasına daxil olmuşdur».*

***Fəridə MƏMMƏDOVA,***
***professor, tarixçi:***

*«Xəzər Universitəsi ən yaxşı Qərb ali məktəblərinin nümunəsi ilə, onlara bənzədilərək yaradılmışdır. Bu, çox gözəldir, amma bu universitənin öz milli xüsusiyyətlərimizi təbliğ etməsi, mədəniyyətimizin dirçəlməsi və inkişaf etməsi üzrə çox vacib işlər görməsi də olduqca təqdirəlayiqdir».*

## RIYAZIYYATÇI ALIM

Fizika-riyaziyyat elmləri doktoru, professor, müxtəlif akademiyaların üzvü Hamlet İsayevin (İsaxanlının) elmə gətirdiyi yeni anlayışlar, yaratdığı riyazi nəzəriyyələr, isbat etdiyi teoremlər riyaziyyat elmini xeyli zənginləşdirib, azərbaycanlı alimə dünya şöhrəti gətirib. O, məhz riyaziyyatçı alim kimi Sovet dövründə dünyanın qabaqcıl ölkələrində mühazirələr oxuyub, işləyib, əsərlərini çap etdirib. Onun rəhbərliyi altında dissertasiya müdafiə etmiş gənc alimlər indi ABŞ-da, Rusiyada, İsraildə, Türkiyədə və başqa ölkələrdə uğurla işləyirlər.

Hamlet İsayevin (İsaxanlının) elmi-tədqiqat işləri SSRİ Elmlər Akademiyasının nüfuzlu illik hesabatlarında ən yaxşı işlər siyahısına daxil edilmişdir.

Gənc riyaziyyatçı alim görkəmli mütəxəssislərin çox çətin və maraqlı sahə saydıqları bir istiqamətdə – riyazi fizika və kvant mexanikasından yaranan çoxparametrli spektral nəzəriyyə sahəsində gərgin elmi tədqiqatlar aparıb.

Riyaziyyat və onun tətbiqi üzrə elmi məqalələri ingilis və rus dillərində Amerika, Avropa və Sovet İttifaqında nəşr edilən ən nüfuzlu elmi jurnallarda çap olunub.

Bu sahədə çalışan görkəmli kanadalı alimlər P.Braun və P.Bayndinq o zaman çox gənc olan Azərbaycan aliminin işləri ilə yaxından maraqlanıb onu Kanadaya dəvət etmiş, bu nəzəriyyənin ağsaqqalı sayılan məşhur Frederik Atkinson onu Torontoya dəvət etmiş, Hamlet İsayevin (İsaxanlının) şərəfinə riyazi konfrans təşkil etmişdir. Bu, görkəmli riyaziyyatçımızın Qərb dünyasında şöhrət yolunun başlanğıcı idi.

**Böyük insanlar haqqında onun vətənindən uzaqda yaşayan böyük insanların, elm və sənət adamlarının fi-**

**kirləri subyektivizimdən uzaq olduğu üçün daha qiymətlidir.**

***P.C.Braun,***
***Kalqari Universiteti (Kanada):***

*«1970-ci ildən başlayaraq çoxparametrli spektral nəzəriyyənin tədqiqatı sahəsində böyük fəallıq duyulur. Kanadada mənimlə P.Bindinqin rəhbərliyi altında qrup fəaliyyət göstərir. Şotlandiyada professor B.D.Slemaanın qrupu da yaxşı nəticələr əldə edib. SSRİ-də isə Bakının Riyaziyyat və Mexanika İnstitutunda çox fəal və əzmkar qrup işləyir. Onun rəhbəri doktor H.İsayevdir. Neçə il idi ki, biz Bakı qrupu ilə əlaqə yaratmaq istəyirdik. Son bir neçə həftə ərzində ürəkdən sevinirik. Doktor H.İsayevi Kalqariyə dəvət etmək, onunla əməkdaşlığa başlamaq imkanı tapmışıq. H.İsayevin mühazirələrindən çox böyük fayda götürdük. Bir sözlə, onun qısa səfəri tədqiqat həyatımıza böyük töhfə bəxş etdi».*

***F.V.Atkinson,***
***professor, Toronto Universiteti:***

*«Çoxparametrli spektral nəzəriyyənin ən qiymətli nəticələrini son illər Hamlet İsayev və onun tələbələri almışlar. Qətiyyətlə və çəkinmədən demək olar ki, o, müasitr çoxparametrli spektral nəzəriyyənin yaradıcılarından biridir».*

***B.M.Levitan,***
***professor, Lenin mükafatı laureatı:***

*«H.A.İsayev Sovet İttifaqında birinci riyaziyyatçıdır ki, çoxparametrli spektral nəzəriyyə sahəsində sistemli şəkildə tədqiqatlar aparmış və çox qiymətli nəticələr əldə etmişdir».*

***V.B.Lidski,***
***professor, Lenin mükafatı laureatı***

***(gənc Hamlet İsayevin namizədlik dissertasiyasına rəydən):***

*«...Müəllif bir sinif öz-özünə qoşma olmayan operatorlar nəzəriyyəsində çox gözəl riyazi metod yaratmışdır... Dissertasiyadakı üç fəslə ehtiyac yoxdu, tək birinci fəsil namizədlik üçün kifayət edəcək gücə malikdir... H.İsayev dərin elmi nəticələr əldə etmişdir və bunlar namizədlik dissertasiyasına qoyulan tələblərdən açıq-aşkar yuxarıda durur...»*

***A.Q.Kostyuçenko,***
***professor, M.Lomonosov mükafatı laureatı,***
***Moskva Dövlət Universiteti:***

*«H.A.İsayev ölkəmizdə birinci riyaziyyatçıdır ki, əsası hələ klassiklər tərəfindən qoyulmuş çoxparametrli spektral nəzəriyyə sahəsində tədqiqatlar aparır. O, bu sahədə çox böyük və çətin hesab olunan nəticələr əldə etmişdir. H.A.İsayev bu sahənin bir çox bölmələrinin yaradıcısıdır».*

***A.Sadovniçi,***
***professor, M.Lomonosov mükafatı laureatı***
***(indi Moskva Dövlət Universitetinin rektoru):***

*«Çoxparametrli spektral nəzəriyyə funksional analizin maraqlı və çətin sahələrindən biridir. Mən bu sahəyə aid çox işlərə rəylər yazmışam və qeyd etmək istəyirəm ki, H.A.İsayevin bir çox elmi nəticələri xarici alimlər tərəfindən aparılmış tədqiqatları çox-çox arxada qoymuşdur».*

***A.A.Dezin,***
***professor, Dövlət mükafatı laureatı:***

*«H.A.İsayev çətinliklərin öhdəsindən çox ustalıqla gələn, maraqlı və çətin problemləri həll etməyi bacaran geniş erudisiyaya malik riyaziyyatçıdır».*

***N.A.Voznesenski adına***
***Leninqrad Qırmızı Əmək Bayrağı ordenli Maliyyə-İqtisad İnstitutu Elmi Şurasının təqdimatından:***

*«H.A.İsayev SSRİ-də və ölkəmizdən kənarda funksional analiz sahəsində böyük bir alim kimi hörmət qazanmışdır. H.A.İsayev operatorların ədədi oblastı nəzəriyyəsinin yaradıcılarındandır. H.A.İsayevin ixtiyari tərtibli çoxparametrli sinqulyar differensial operatorların məxsusi funksiyalar üzrə ayrılması haqqında teoremi artıq klassikləşmişdir.*

*...H.A.İsayev operatorların müasir spektral nəzəriyyəsi sahəsində elmi məktəbin yaradıcısıdır».*

***V.B.Lidski,***
***professor, Lenin mükafatı laureatı:***

*«Çoxparametrli spektral nəzəriyyə sahəsində məşhur alimlərin (İsayevdən əvvəl) tədqiqatlar aparmasına baxmayaraq, H.A.İsayev bu sahənin ümumi nəzəriyyəsinə və onun konkret gerçəkləşməsinə xüsusi elmi töhfələr vermişdir. Qeyd etmək lazımdır ki, bu sahə bizim ölkəmizdə indiyə kimi öz layiqli əksini tapmamışdı...»*

***S.M.Nikolski,***
***akademik, SSRİ Elmlər Akademiyası:***

*«Hamlet Abdulla oğlu İsayev riyazi analiz sahəsində çalışan məşhur riyaziyyatçı alimdir. O, funksional analiz və onun tətbiqi sahəsində fundamental tədqiqatlar müəllifidir. Onun çoxparametrli spektral nəzəriyyəyə həsr olunmuş işləri xaricdə çox yüksək qiymətləndirilir».*

***V.Q.Vladimirov,***
***akademik, SSRİ EA-nın V.A.Steklov adına Riyaziyyat İnstitutunun direktoru:***

*«H.A.İsayev funksional analiz üzrə məşhur mütəxəssisdir. Onun bu sahədə apardığı tədqiqatlar xarici mütəxəssislərin diqqətini xüsusi cəlb etmiş, onun elmi çıxışları mütəxəssislər tərəfindən çox bəyənilmişdir».*

# ŞAIR VƏ TƏRCÜMƏÇI

Hamlet İsayev (İsaxanlı) Azərbaycanda və ölkəmizdən kənarda istedadlı şair kimi tanınır. Onun Azərbaycanda çapdan çıxmış «Təzadlar» (2001)[1], «Bu da bir həyatdı» (2004) [2] əsərləri Təbrizdə də ərəb qrafikası ilə nəşr olunmuş, üstəlik Təbriz şəhərində «Şeirə dönən duyğular» (2003) kitabı da çap edilmişdir. Tbilisidə gürcü dilində oxuculara təqdim olunmuş «Ömrün poeziyası» (2004)[3] şeir kitabı poeziya- sevərlərin rəğbətini qazanıb. Şeirləri məşhur tərcüməçilər tərəfindən digər dillərə də çevrilmişdir. Hazırda şairin 3 şeir kitabı Rusiyada, Türkiyədə və Çində çapdadır.

Şeirlərinə bəstələnmiş musiqilər

Hamlet İsaxanlının şeirləri musiqi ilə dolu, ürəyəyatan və könülləri ehtizaza gətirəndir. Məhz buna görə də onun müxtəlif şeirləri Azərbaycanın tanınmış bəstəkarlarının diqqətini cəlb edib. Bu baxımdan şairin «Xəzər Universitəm» şeirinə xalq artistləri Ramiz Mustafayev və Vasif Adıgözəlov, «Xəzərimin sorağında» şeirinə Ramiz Mustafayev, «Hicran» şeirinə Vaqif Gərayzadə, «Səni sevdim çox sadəcə», «Lalə», «İnciçiçəyi» «Gözəldir», «Külək və qız», «Tək qalmaq istəyirəm» şeirlərinə Nailəxanım İsayeva, «Baş açmadım bu dünyadan» şeirinə Elza Seyidcahan, «Qədim sual», «Möcüzə gecə» və digər şeirlərinə Dilarə Qulamova könülaçan musiqi bəstələyiblər. Bu və başqa mahnılar Brilliant Dadaşova, Lütfiyar İmanov, Manana Caparidze, Rəşidə Behbudova, Elza Seyidcahan, Samir Cəfərov, Dövlət simfonik orkestri və xoru, «Şaron» qrupu və b. tərəfindən ustalıqla ifa olunur, dinləyici və tamaşaçıların ürəyini oxşayır.

---

[1] H.İsaxanlı (2001) "Təzadlar"
[2] H.İsaxanlı (2004) "Bu da bir həyatdır"
[3] H.İsaxanlı (2004) "Ömrün Poeziyası" (Gürcü dilində)

Şeirlərinin başqa dillərə tərcümələri

Hamlet İsayevin (İsaxanlının) şeirlərini tanınmış şair-tərcüməçi Alla Axundova rus dilinə, İmir Məmmədli gürcü dilinə, Firəngiz Nəsirova, Şəhla Nağıyeva, Mərufə Mədətova ingilis dilinə tərcümə etmişlər. Onun şeirləri həmçinin fars, Türkiyə türkcəsi və Çin dillərinə də qismən çevrilmişdir və bu istiqamətdə işlər davam edir.

Rus, ingilis, fransız poeziyasından
azərbaycancaya tərcümələri

Hamlet İsayev (İsaxanlı) yaradıcılıq fəaliyyətinin bir hissəsini poetik tərcüməyə həsr etmişdir. O, V.A.Jukovski, F.İ.Tütçev, A.Fet, N.S.Qumilyov, A.Axmatova, S.Yesenin, F.Baratınski, G.Bayron, W.Bleyk, R.Herrik, G.De Nerval kimi məşhur şairlərin əsərlərini ruscadan, ingiliscədən və fransızcadan Azərbaycan dilinə ustalıqla çevirmiş, oxucu və mütəxəssislərin rəğbətini qazanmışdır.

«Qızıl Qələm» və «Səməd Vurğun»
mükafatları laureatı

Hamlet İsayevin (İsaxanlının) ədəbi-bədii sahədəki səmərəli fəaliyyəti nüfuzlu mükafatlarla qiymətləndirilib. Onlardan «Qızıl Qələm» mükafatını və maarifçilik, milli elmimizin tərəqqisi, Azərbaycan mədəniyyəti və ədəbiyyatı

qarşısında xidmətlərinə görə layiq görüldüyü «Səməd Vurğun» mükafatını qeyd etmək olar.

***Camal Mustafayev,***
***professor, əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru:***

*«Hamlet İsaxanlı poeziyasının bu qədər geniş əks-səda doğurmasını şərtləndirən nədir? Bu suala qısaca cavab vermək olar. Müxtəlif janrlı şeirlərdə bədii axtarışların, poetik fikrin orijinallığıdır.*

*Hamlet müəllimin yaradıcılıq sirrini necə açmaq olar? Hamlet İsaxanlı az sözdə vəznli fikir ifadə etmək ustalığına malik şairdir.*

*Yəqin o, təbiətin qoynunda böyüdüyünə görə belədir. Təbiətdə olan təzadlı, faciəli hadisələrin özünü daxilən yaşamaq böyük insani keyfiyyət, həm də şairliyə məxsus zəriflikdir.*

*Hamlet İsaxanlının tərcümələri də dilimizdə gözəl səslənir. Bu tərcümələr sözün zərif biçimini və şairanə mənasını duyanların zövqünü oxşayacaq».*

***Zəlimxan Yaqub,***
***xalq şairi:***

*«Hamlet özünün böyük elmi potensialı ilə, riyaziyyatda yaratdığı poeziyası ilə, poeziyada yaratdığı gözəlliyi ilə, «elmsiz şeir əsassız divar kimidir» deyən möhtəşəm, ulu Füzuli babasının vəsiyyətinə müqəddəsliklə əməl eləyən, xalqımızın qəlbində heykəlləşən, adı dünyada fəxrlə çəkilən, elmi fəaliyyəti nəticəsində Bakı kimi bir şəhəri riyaziyyat elminin mərkəzinə çevirən, hamımızın sevdiyimiz böyük bir şəxsiyyətdir.*

*Hamlet İsaxanlının «Səni sevdim çox sadəcə» şeiri Səməd Vurğunun «El bilir ki, sən mənimsən» sözləri kimi sadə və gözəldir, artıq hamıya tanışdır».*

***Nəriman Həsənzadə,***
***xalq şairi:***

*«Bizim Hamlet müəllimin Şekspirin Hamletindən daha qətiyyətli, yaradıcı və qurucu olduğu fikri dolaşdı başımda və onun şəninə bir şeir yarandı:*

*Şekspir dahidir şəksiz-şübhəsiz,*
*"Hamlet"i Hamletə bənzər yaratdı.*
*Lakin ləngimədi Borçalı prins,*
*Xəzər sahilində «Xəzər» yaratdı.*

*Hamlet müəllimin «Susma, danış, ay ana» şeiri anaya həsr edilmiş ən səmimi əsərlərdən biridir».*

***Mövlud Süleymanlı,***
***yazıçı:***

*«İstanbul, Boğaziçi» şeirini oxudum, səmimi olaraq deyim ki, dünyanın bütün ayrılıqlarını xatırladım.*

*Lalələr haqda çox şeirlər oxumuşuq, yəqin ki, hələ də oxuyacağıq. Hamlet İsaxanlının bu dörd bənddən ibarət olan «Lalə» şeiri əbədi olan BÖYÜK SÖZÜN ifadəsidir.*

*«Durnalar» şeirini oxuyanda M.V.Vidadinin, M.P.Vaqifin «Durnalar»ını xatırladım. İstər-istəməz milli sərvətimiz olan bu gözəl, klassik şeirlərlə yanaşı görün Hamlet İsaxanlının «Durnalar»ı necə yenidir, təsirlidir, fikir baxımından, ifadə baxımından necə bu gündür».*

***Vidadi Babanlı,***
***yazıçı:***

*«Hamlet İsaxanlı şeir məclisinin şan-şöhrətli keçməsi bizim üçün fərəhlidir. Biz fərəhlənirik ki, bizdən sonra sənətə gələnlərin belə uğurları var».*

***Turac Atabaki,***
***tarixçi, tərcüməçi (Niderland):***

*«Hamlet İsaxanlı poeziyasını xarakterizə edən ifadələrdən biri müasir sufizm ola bilər».*

***Hans Ahmed Schmide,***
***filoloq, tərcüməçi (Almaniya):***

*«Şeir kitablarınızı zövq və maraqla oxumağa başlamışam. İlk varaqlayanda «Hacı oldun, çox mübarək!» adlı şeiriniz xüsusilə diqqətimi çəkdi. Qələminizə sağlıq! Ümumiyyətlə, şeirlərinizi oxuyarkən bir daha mənə aydın oldu ki, riyaziyyat ilə şeiriyyət arasında qəribə bir ünsiyyət var. Mənə görə riyaziyyat dünyəvi elmlərlə elmi-lədunniyyətin qovşağındadır. Dünya şöhrətli bir matematikçinin eyni zamanda dərin duyğulu bir şair olmasını ayrı cür izah eləyə bilmərəm».*

***Müzəffər Şükür,***
***şair:***

*«Hamlet İsaxanlı poeziyasında Şərq müdrikliyi ilə Avropa düşüncəsi bir-birinə qovuşub».*

***Nijad Mikayılzadə,***
***fizioloq və dilçi:***

*«Ələ aldıqda aludə olub, birinci şeirdən son nöqtəsinədək birnəfəsə oxumamış yerə qoymaq mümkün olmayan şeir toplusu. Bu, Hamlet İsaxanlının «Təzadlar» kitabıdır.*

*«Səni sevdim çox sadəcə» şeiri Hamlet İsaxanlının ən mürəkkəb hissləri ən sadə sözlərlə ifadə etmək bacarığını əks etdirir.*

*Bir tərəfdən yumoristik xarakter daşıyan, digər tərəfdən isə islam dini terminologiyası ilə son dərəcə zəngin olub, klassik şeir üslubunda yazılmış «Hacı oldun, çox mübarək!» şeiri xüsusi diqqətə layiqdir. Bu şeir müəllifin islamın bütün adət-ənənə, qayda-qanun və mərasimlərinə dərindən bələd olduğunu göstərir».*

***Brilliant Dadaşova,***
***əməkdar artist, müğənni:***

*«Təzadlar» – mənim ən çox sevdiyim və çox oxuduğum, ayrılmaq istəmədiyim kitablardandır».*

***Kamran Nəzirli,***
***yazıçı və publisist:***

*«Hamlet İsaxanlının poeziyasında diqqəti çəkən əsas cəhətlərdən biri də onun şeir üslubunun bənzərsizliyi, güclü bədii duyumu vasitəsilə incə lirizm yaratmasıdır.*

*Onun şeirləri mövzusuna görə nə qədər müxtəlif olsa da onları bir xətt birləşdirir, insanlıq sevgisi və məncə, şairin xoşbəxtliyi də ondadır ki, bütün ziddiyyət və təzadlarına, əzab-əziyyətlərinə və sevincinə baxmayaraq, o, bu sevgidən doymur, bu sevginin yanğısıyla yaşayır.*

*Onun «Təzadlar»ında yaratdığı həyat lövhələri həm böyük sevinci, həm də böyük kədəri eyni dərəcədə tərənnüm edir. İnsanı heyrətə gətirən, onu sarsıdan və həm də onu məmnun edən duyğular lirik sətirlərə dönür və əslində bu sətirləri oxuyan adam onu özününkü hiss edir, doğma sayır».*

***Əziz Pünhan,***
***ilahiyyatçı:***

*«Riyaziyyatçı alimin poetik düşüncələri, zərif təbi ilə yazdığı şeirlər müasir ədəbi prosesləri özündə ehtiva edə biləcək qədər gücə malikdir.*

*Hamlet İsaxanlının yüksək intellektini, mədəniyyətini, əxlaqını, nəcib təbiətini onun şeirlərində də görürük.*

*«Hacı oldun, çox mübarək!» şeiri Hamlet İsaxanlının dini dünyagörüşünün yüksək olmasından xəbər verir. Həyatın müxtəlif sahələri ilə yanaşı dini məsələləri də ədəbi dillə təsvir edən Hamlet İsaxanlı Həcc mərasimində ərəbcə ifadə olunan sözləri olduğu kimi saxlamaq şərti ilə gözəl bir əsər*

*yaradıb».*

***Metin Turan,***
***şair və filoloq (Türkiyə):***

*«Bu günkü Azərbaycan poeziyasının ən parlaq təmsilçilərindən biri olan Hamlet İsayev (İsaxanlı) yeni Azərbaycan şeirinin dəyişməsində, yeni forma və məzmun qazanması yolunda ən mühüm simadır».*

***Yunus Vəhdəti,***
***filologiya elmləri doktoru (İran):***

*«Hamlet müəllimin şeirləri ürəkdən gəlir və ürəyə yatır, insanı ehtizaza gətirir, sadə və gözəldir, elə gözəllik də sadəlikdədir - «Səni sevdim çox sadəcə», «Susma, danış, ay ana» şeirləri kimi».*

***İmir Məmmədli,***
***şair, publisist və tərcüməçi (Gürcüstan):***

*«Hamlet İsayevin (İsaxanlının) poetik yaradıcılığı, onun bir mütərcimi kimi deyə bilərəm ki, bütünlükdə insana, bəşərə deyilən xoş bir kəlam, poeziya dilində deyilən, qəlblərə ünvanlanan nurlu bir salamdır».*

***Çin Mərkəzi Tərcümə Nəşriyyatı:***

*«Hamlet İsayevin (İsaxanlının) şeirləri çox gözəldir və biz çox məşhur Çin tərcüməçisi və poeziya tənqidçisinin arzusu və köməyi ilə bu əsərləri Çin dilinə çevirib nəşr etmək istəyirik».*

***Oxucu məktublarından:***

- *«Təzadlar»ı dəfələrlə oxuyuram və təkrar-təkrar oxuyanda hər dəfə nəsə yeni kəşflər edirəm.*
- *O, böyük şairdir. Ancaq böyük şairlər quşun göz yaşını görə bilər. Ancaq dahi şairlər qanadı qırılmış quşun halına qəhərlənə, ölən quşu görərkən ağlaya bilər. Şair bu duyğularını «Dənizdə bir quş» şeirində qələmə alıb.*
- *Fikrimcə, şairi kim tanımaq istəsə, ilk öncə onun «Tək qalmaq istəyirəm» şeirini oxumalıdır. Bu şeirdə əsl şairi görmək olar.*
- *Kitaba («Təzadlar») toplanmış şeirlər və tərcümələr müəllifin istedadından, poetik şeir dünyasından xəbər verir, onun bədii təxəyyülündən süzülən lirik, ibrətamiz duyğularını əks etdirir.*
- *Hamlet İsaxanlının şeirləri gözəl və bənzərsizdir, tanıdığım və oxuduğum bütün şeirlərdən fərqlidir, şeirlər mənalı və səmimidir.*
- *Hamlet İsaxanlı poeziyasında anaya sevgi, həyat dostuna sevgi, övlada sevgi, vətənə sevgi, amalına sevginin tərənnümü böyük bir harmoniya yaratmışdır.*

# HUMANITAR VƏ SOSIAL ELMLƏR ÜZRƏ TƏDQIQATÇI

Professor Hamlet İsayevin (İsaxanlının) elmi yaradıcılığı zəngin və çoxşaxəlidir. **İsaxanlı soyadı** onun humanitar və sosial elmlər sahəsində apardığı tədqiqatlarda, eləcə də şair kimi işlətdiyi soyaddır. O, geniş ictimaiyyət arasında indi daha çox Hamlet İsaxanlı kimi məşhurdur, riyaziyyat sahəsində və rəsmi sənədlərdə isə İsayev soyadı ilə tanınır. Onun fəaliyyətində humanitar və sosial elmlərlə bağlı araşdırmalar da mühüm yer tutur. Universal yaradıcılıq potensialına malik olan alim bu sahələrə dair yüzlərlə məqalə və irihəcmli əsərlər müəllifidir. Bu əsərlərində ədəbiyyat və mədəniyyət tarixi, İslam sivilizasiyası, siyasi tarix, milli kimlik, tərcümə nəzəriyyəsi və tarixi və digər məsələlər özünəməxsus şəkildə tədqiq edilib və öz müəllifinə bu dəfə humanitar və sosial elmlər sahəsində böyük hörmət qazandırıb.

Alimin elm və təhsil tarixi və nəzəriyyəsi sahəsində yazdığı çoxsaylı əsərləri və ən nüfuzlu beynəlxalq məclislərdə çıxışları onu məşhur elm-təhsil tarixçisi və nəzəriyyəçisi kimi tanıtmışdır. Hamlet İsayev (İsaxanlı) ölkəmizdə təhsil islahatlarının aparılmasında, Bolonya sisteminin həyata keçirilməsində fəal iştirak edir. Azərbaycan təhsil sisteminin dünya təhsil sisteminə qovuşması məsələsi məhz onun geniş fəaliyyəti sayəsində gerçəkləşməyə başlamışdır. Bu və təhsil quruculuğu sahəsindəki digər böyük uğurlarına görə o, Azərbaycan Prezidenti yanında yaradılan nüfuzlu Təhsil Komissiyasının üzvü seçilmişdir. Yeri gəlmişkən, Hamlet İsayev (İsaxanlı) bu komissiyanın tərkibinə daxil edilmiş yeganə ali məktəb rektorudur.

Professor Hamlet İsayevin (İsaxanlının) həmmüəllif olduğu «Xaricilər üçün Azərbaycan dili»[4] dərsliyi bu gün

[4] H. Isaxanli, E. İsmayılova, F. Nasirova / The Azerbaijani Language (Azərbaycan dili). – Baku: Khazar University Press, 1997. – 167 p. – ISBN 5-7843-0003-2.

həm ölkəmizdə, həm də müxtəlif qitələrdə əcnəbi vətəndaşların ən çox müraciət etdiyi stolüstü kitaba çevrilib.

Tərcümə məsələləri, dil siyasəti və lüğətçilik işinin təşkili sahəsində onun xidmətləri təqdirəlayiqdir. Bu baxımdan alim öz fikir və mülahizələrini dövri mətbuatda dərc etdirdiyi məqalələrində, ayrı-ayrı elmi konfranslardakı çıxışlarında, habelə irihəcmli «Poetik tərcümə»[5] əsərində aydın şəkildə ifadə edə bilmişdir.

Hamlet İsayev (İsaxanlı) vətənpərvər, öz xalqını ürəkdən sevən, azərbaycanpərəst bir şəxsiyyətdir. O, Azərbaycan həqiqətlərinin, mədəniyyətitıin dünyada tanınması üçün əlindən gələni əsirgəmir. ABŞ-da nəşr olunan «Dünya ədəbiyyatı bu gün» jurnalı ilə sıx əlaqə saxlayaraq bu jurnalda Azərbaycan ədəbiyyatı nümunələrinin çap olunmasını təşkil etməsi kimi misalları xeyli çoxaltmaq olar.

Bütün bunlarla yanaşı, professor Hamlet İsayev (İsaxanlı) uzun müddətdir ki, Xəzər Universitəsində hazırlanan və artıq iki cildi nəfis şəkildə işıq üzü görən 6 cildlik «Xəzər İngiliscə-Azərbaycanca Böyük Lüğət»in[6] [7] redaktoru kimi çox ağır zəhmət tələb edən bir fəaliyyətlə də məşğuldur. Bu lüğət Azərbaycan elmi və mədəniyyətinin ən sanballı nailiyyətlərdən biridir.

---

[5] H. İsaxanlı / Poetik tərcümə. Məhdud çərçivələr içində xoş ahəng və gözəllik axtarışı // Poetik tərcümələr: 1-ci toplu. – Bakı: Xəzər Universitəsi nəşriyyatı, 2005. – s. 311-389.
Həmçinin // Dünya ədəbiyyatı jurnalı. – 2005. – N 2. – s. 229-272.

[6] Hamlet İsaxanlı, Tofiq Abasquliyev / Xəzər Ingiliscə-Azərbaycanca böyük lüğət: 6 cilddə. – Bakı: Xəzər Universitəsi nəşriyyatı, 2004. – ISBN 9952-20-020-X.
C.1: A-C. – 2004. – 754 s. – ISBN 9952-20-021-8
C.2: D-H. – 2004. – 805 s. – ISBN 9952-20-022-6

[7] Hamlet İsaxanlı, Tofiq Abasquliyev / Xəzər Ingiliscə-Azərbaycanca böyük lüğət: 6 cilddə. - Bakı: Xəzər Universitəsi nəşriyyaü, 2008. - ISBN 978-9952-20-020-1.
C.3:1-N. - 2008. - 644 s. - ISBN 978-9952-20-023-2

# REDAKTORLUQ FƏALIYYƏTI

Professor Hamlet İsayev (İsaxanlı) müxtəlif xarici dillərdən azərbaycancaya və əksinə tərcümə kitablarının, həmçinin bir çox elmi-ədəbi əsərlərin və topluların tərtibatçısı və redaktoru kimi də mühüm işlər görür. Burada adları sadalanan nəşrlər alimin bu istiqamətdəki fəaliyyətini əyani şəkildə sübuta yetirir:

Üçdilli (Azərbaycan, ingilis, rus) **«Xəzər Xəbər» («Khazar View»)** elmi-kütləvi və bədii-publisistik jurnalının baş redaktoru;

İngilis dilində nəşr olunan **«Khazar Journal of Mathematics» («Xəzər Riyaziyyat Jurnalı»)** elmi jurnalının baş redaktoru;

**«Azerbaijani Studies» («Azərbaycan Araşdırmaları»)** elmi jurnalının baş redaktoru;

**«Azərbaycan Arxeologiyası»** elmi jurnalının təsisçisi;

**«Public voice»** (ABŞ) jurnalının redaksiya heyətinin üzvü olub.

**«Azərbaycan Respublikasında təhsil islahatları»** konfransının materialları. Bakı, Xəzər Universitəsi, 27-28 yanvar 1995.

**«Azərbaycan tarixinin problemləri, müasir tədris və elmi nəşrlərdə onların əksi»** konfransının materialları. Bakı, Xəzər Universitəsi, 15 aprel 1995.

**«Xarici dil tədrisinin nəzəri və praktik məsədlələri»** konfransının materialları. Bakı, Xəzər Universitəsi, 20 may 1995.

**«Azərbaycanda ictimai-siyasi fikir – XX əsr»** konfransının materialları. Bakı, Xəzər Universitəsi, 12 may 1996.

**«Şah İsmayıl və onun dövrü»** beynəlxalq konfransının materialları. Bakı, Xəzər Universitəsi, 24-26 sentyabr 1997.

**«Qafqazda Sovet totalitarizmi. 20-30-cu illər»** elmi konfransının materialları. Bakı, Xəzər Universitəsi, 6-7 noyabr 1998.

Tadeuş Svietoçovski. **«Rusiya və Azərbaycan».** Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 1999.

Camal Mustafayev. **«İdrakın şeiriyyəti».** Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 1999.

**«Azərbaycan tarixinin çağdaş problemləri».** Azərbaycan tarixçisi professor Süleyman Əliyarlının 70 illik yubileyinə həsr olunmuş məcmuə. Bakı, Xəzər Universitəsi, 2000.

M.L.Stein və Susan F.Paterno. **«Jurnalistikaya giriş. Müxbirin stolüstü kitabı».** Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2002.

Heinrich Fridrich Von Diez. **«Kitabi-Dəqəm Qorqud aşiqi».** Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2002.

**«Gürcüstanda erməni, yoxsa gürcü kilsələri?»** (İngilis dilində**).** Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2004.

**«M.Ə.Rəsulzadə və ictimai-siyasi ideallar».** Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2005.

**«Xəzər İngiliscə-Azərbaycanca Böyük Lüğət»:** 6 clddə, 1-2-ci cild. Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2005.

R.E.Hiebert, D.F.Ungurait, T.W.Bohn. **«Kütləvi İnformasiya Vasitələri. Müasir kommunikasiyaya giriş»**. Bakı, Xəzər Universitəsi Nəşriyyatı, 2005.

# BEYNƏLXALQ FƏALIYYƏT

Professor Hamlet İsayev (İsaxanlı) beynəlxalq aləmdə görkəmli riyaziyyatçı alim, elm və təhsil təşkilatçısı, humanitar və sosial elmlər üzrə geniş əhatəli tədqiqatçı, şair və maarifçi kimi tanınmışdır. Hamlet İsayev (İsaxanlı) UNESCO, NATO, Avropa Şurası kimi beynəlxalq qurumların keçirdiyi tədbirlərdə aparıcı məruzələrlə çıxış etmiş, layihələrə rəhbərlik etmişdir.

Dünyanın ən məşhur universiteti olan Harvard Universitetinin bizim bölgəmizdə ən yaxın tərəfdaşı məhz Xəzər Universitetidir.

*«Xəzər Universiteti Yaxın Şərq və Mərkəzi Asiyanın Harvardıdır».* ***(K.Diker, ABŞ səfirliyinin təhsil və mədəniyyət işləri attaşesi).***

2001-ci ilin aprel ayında Xəzər Universitetinin rektoru, professor Hamlet İsayev (İsaxanlı) Harvard Universitetində Minsk qrupu çərçivəsində «Dağlıq Qarabağ üzrə danışıqlar: Biz hara gedirik?»[8] mövzusunda keçirilən Amerika-Azərbaycan-Ermənistan müzakirələrində Azərbaycanı təmsil etmişdir (Amerikanı Minsk qrupunun amerikalı həmsədri, səfir Keri Kavanau, erməniləri Çikaqo Universitetinin professoru Ronald Suni təmsil etmişlər).

2001-ci ilin yayında bu işlərin davamı olaraq Xəzər Universiteti Harvard Universiteti ilə birgə «Milli kimlik məsələsi» və «Qarabağ: Hərb və sülh» mövzusunda iki konfrans keçirdi. Konfransda Azərbaycanın Xarici İşlər Naziri və başqa dövlət rəsmiləri, xarici ölkə diplomatik nümayəndələrinin əksəriyyəti iştirak edirdilər.

Professor Hamlet İsayevin (İsaxanlının) gərgin işi sayəsində ötən illər ərzində dünyanın inkişaf etmiş xarici ölkələrində təhsil almaq, tədqiqat aparmaq və staj keçmək üçün

---

[8] H.İsaxanlı, B. Shaffer,C. Cavanaugh, R. Suny (2001). «Dağlıq Qarabağ üzrə danışıqlar: Biz hara gedirik?» panel müzakirəsindən xülasə və transkript. Caspian Studies Program, John F. Kennedy School of Government, Harvard University

xeyli alim və müəllim göndərilib. Eyni zamanda xarici ölkələrdən Azərbaycana müxtəlif sahələr üzrə alim və müəllimlər dəvət edilib.

Bununla yanaşı o, yüzlərlə azərbaycanlı tələbələri nüfuzlu xarici ölkə ali məktəblərində təhsil almağa göndərib.

Professor Hamlet İsayev (İsaxanlı) xarici ölkələrdən Azərbaycana humanitar yardımlar edilməsi, xarici ölkələrdə Azərbaycan Lobbisinin yaradılması sahəsində də xeyli işlər görüb və bu sahədə uğurla çalışmaqdadır. Onun xarici mütəxəssislərin diqqətini Azərbaycan problemləri ilə bağlı məsələlərə cəlb etmək istiqamətində xeyli uğurları vardır.

O, Şimali Amerika, Qərbi və Mərkəzi Avropa, Şərqi Avropa və keçmiş Sovet ölkələri, Yaxın Şərq ölkələri, Hind-Çin dünyası və Malayziya kimi dünyanın bir-birindən çox aralı bölgələrində keçirilmiş müxtəlif elmi konfrans, simpozium və forumların iştirakçısı olub, universitetlərdə mühazirələr oxuyub.

Professor Hamlet İsayev (İsaxanlı) bir sıra beynəlxalq və yerli konfransların təşkilat komitəsinin sədri olub. O, bir çox məşhur elm, təhsil, mədəniyyət, siyasət və dövlət adamlarının Azərbaycana gəlməsinə nail olub. Bununla bağlı Xəzər Universitetinin yerləşdiyi Nizami rayonu azərbaycanlı və əcnəbi məşhur şəxsiyyətlərin ən çox baş çəkdiyi bir məskənə çevrilib.

Ümumiyyətlə, Xəzər Universiteti xarici səfirlik və beynəlxalq təşkilatların, böyük beynəlxalq şirkətlərin xarici dövlət elm və mədəniyyət xadimlərinin Azərbaycanda ən çox gəlib-getdiyi bir elm, təhsil, mədəniyyət ocağıdır.

## XALQ ARASINDA. İNSANI KEYFIYYƏTLƏR

Hamlet İsayev (İsaxanlı) ilk baxışda ünsiyyətə çox can atmayan, danışmaqdan çox dinləyən insana bənzəsə də, onunla həmsöhbət olarkən bu hisslər öz yerini başqa bir duyğuya verir. Bir tərəfdən onun sadəliyi və təvazökarlığı insanda heyrət doğurur, digər yandan isə riyaziyyat, fizika, tarix, beynəlxalq münasibətlər, dilçilik, ədəbiyyata aid bilikləri, düşüncə genişliyi, dünyagörüşü, orijinal mülahizələri bu sahələrin mütəxəssislərini belə heyran edir. Klassik elmə, ədəbiyyat və mədəniyyətə dərindən bələd olması şüurlarda yaranan «son dərəcə quru», yalnız rəqəmlər aləminin tərki-dünya yaşayan klassik riyaziyyatçı obrazından əsər-əlamət qoymur. (Əslində o, təbiət elmləri ilə humanitar və sosial elmləri özündə birləşdirən nadir simalardan biridir).

Hamlet müəllimlə ünsiyyətdə olan hər kəs ondakı qeyri-adi cəhətləri sezir. O, həssasdır, şairanə və incəqəlblidir. Onun musiqi, incəsənət və təbiət duyumu güclüdür. Bu barədə xüsusi söhbət açmır, çox danışmağı, təhlil aparmağı sevmir. Bu hisslər onun hərəkətlərində, söz, işarə və eyhamlarında, zövqündə, yumorunda, bu sahələrə sevgisində özünü göstərir. Özünəməxsus bədii-publisistik üslubu ilə üzə çıxan müxtəlif səpkili yazıları və nitqləri xüsusi maraq doğurur.

Hamlet İsayev (İsaxanlı) öz xidmətlərindən söhbət açmağı xoşlamır, keçmiş uğurlarına qapanmır, bugünkü nailiyyətlərilə kifayətlənmir, daim yeniliyə, gələcəyə doğru boylanaraq, gələcəyi qurmağa, yaratmağa çalışır.

Öz şeirlərinin birində dediyi kimi:

*Sözümüzün keşiyində dura bilsək,*
*Hədəfləri bircə-bircə vura bilsək,*
*Gələcəyi günümüzdə qura bilsək,*

*Yaşamağa nə var ki!..*[9]

Tanrı Hamlet İsayevə (İsaxanlıya) istedadla yanaşı, rəhbər-lider, təşkilatçılıq bacarığı, geniş dünyagörüşü, möhkəm iradə, nikbinlik, insanpərvərlik də bəxş etmişdir. O, keçmiş zamanlardakı universal zəka sahiblərini, mənəviyyatları ilə nəsillərə örnək olan ziyalılarımızı xatırladır.

Doğrudan da Hamlet İsayevin (İsaxanlının) liderliyi möhkəm bünövrə üzərində dayanıb. İrimiqyaslı işləri planlaşdıran və həyata keçirən bu insan çox geniş dünyagörüşünə malikdir, dərin və rəngarəng bilik sahibidir.

İncə təhlil, alqoritmik düşüncə və duyma qabiliyyəti məsələlərin orijinal həllini tapmaqda ona kömək edir.

«Hər gün, hər saat mükəmməlliyə doğru!» - Xəzər Universitəsinin fəaliyyəti barədə bir çıxışından götürülmüş bu qısa cümlədə Hamlet İsayevin (İsaxanlının) həyat devizi, əsas iş qayəsi olduqca bariz şəkildə öz əksini tapıb.

Xeyirxah, mehriban, gülərüz olduğu qədər də ciddidir, dəqiqdir, prinsipialdır. Qarşısına qoyduğu məqsədə nail olmaq üçün düzgün, dürüst yol seçir və yolundan dönmür. Səbirlə, ötəri işlərə baş qoşmadan düşünə-düşünə, addım-addım, eyni zamanda inadla, inamla irəliləyir.

Yüksək davranış mədəniyyəti, təvazökarlığı, ilhamvericiliyi alim və ziyalıları onun ətrafına cəzb edir.

Həlledici addımların müəyyən edilməsindəki qətiliyi, qərar qəbuletmə məsuliyyətini öz üzərinə götürməsi danılmazdır. O, bunlarla yanaşı, ən yaxşı bildiyi və əvvəlcədən hansı qərar qəbul edəcəyi bəlli olan məsələni belə ətrafındakılarla müzakirəyə çıxarır. Hiss olunur ki, ona hörmət edirlər, onu lider kimi qəbul edirlər, onu sevirlar. O isə həmişə hamıya bərabər olduğunu, heç kimdən yuxarıda durmadığını, bütün hərəkətləri ilə, bütün səmimiyyəti ilə ortaya çıxarır. Başqalarının uğurlarına sevinmə qabiliyyəti, dərd-

[9] Hamlet İsaxanlı / Təzadlar. – Bakı: Xəzər Universitəsi nəşriyyatı, 2001. – 206 s. – ISBN 9952-20-02-1

lərinə və qayğılarına şərikolma xüsusiyyəti göz qabağındadır.

Profesor Hamlet İsayev (İsaxanlı) əsil ziyalı, geniş qəlbli vətəndaş kimi yerliçilik, regionçuluq psixologiyasına qarşı çıxır. O, Azərbaycanda bütün millətlərin yanaşı və mehriban yaşamasını, milli azlıqların təhsil, insan hüquqları, sosial rifah və mədəni sahələrdə inkişafını dövlət siyasətinin mühüm tərkib hissəsi sayır. Hamlet İsayev (İsaxanlı) harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını sevir, onun dərdini öz dərdi, sevincini öz sevinci hesab edir.

Dərin düşüncə, nəzəriyyə, təcrübə, əməli iş, axtarış istəyi ona bir alim və qurucu kimi əbədi şöhrət və başucalığı gətirən nəcib məziyyətlərdir.

Tanrı Hamlet İsayevdən (İsaxanlıdan) bunların heç birini əsirgəməyib. Ömrünün ən yetkin, zəkalı çağlarını yaşayan alim, elm təşkilatçısı və şair dünəninə, bu gününə ümidlə, nikbinliklə nəzər sala bilər. İnanırıq ki, elmdə, təhsildə, ədəbiyyat və poeziyada, quruculuqda seçdıyi xeyirxah, lakin çətin, keşməkeşli yol Hamlet İsayevi (İsaxanlını) yeni uğurlara qovuşduracaq.

Hamlet İsayev (İsaxanlı) şeirlərinin birində təvazökarlıqla belə yazır:

*Bu dünyaya nə gətirdim?*
*Bu dünyada nə qoymuşam?*
*Nə bir işi tam bitirdim,*
*Nə həyatdan tam doymuşam...*[10]

[10] Hamlet İsaxanlı / Təzadlar. – Bakı: Xəzər Universitəsi nəşriyyatı, 2001. – 206 s. – ISBN 9952-20-02-1

***Camal Mustafayev,***
***professor:***

*«Hamlet İsayev (İsaxanlı) doğma xalqına dərin mənəvi tellərlə bağlıdır. Hamlet müəllim həqiqətən həddindən artıq həssas, həddindən artıq zərif, insana, təbiətə qayğıkeş bir şəxsiyyətdir».*

***Müzəffər Şükür,***
***şair:***

*«Hamlet İsayevin (İsaxanlının) dahilərə məxsus sadəliyi və təvazökarlığı məni məmnun etdi. Bu, yüksək mənəviyyatın və intellektin təzahürüdür. Hələ də onunla görüşümün təsiri altındayam».*

***Yunus Vəhdəti,***
***filologiya elmləri doktoru (İran):***

*«Hamlet İsayev (İsaxanlı) özününkü deyil, şöhrəti sərhədlər aşıb, o taylı-bu taylı hər iki Azərbaycanındır, bütün dünyanındır. O, bizim iftixarımızdır, biz onunla fəxr edirik».*

# XEYRIYYƏÇILIK

Hamlet İsayev (İsaxanlı) Allahın ən sevimli bəndəsidir. Allah ona iti ağıl, hərtərəfli qabiliyyət, təmənnasız xeyirxahlıq, saf mənəviyyat, zəngin bilik, güclü elmi və poetik düşüncə, əvəzsiz ilahi nemət olan şairlik istedadı bəxş edib. O, ensiklopedik zəka sahibidir: bir şəxsiyyətdə xeyriyyəçilik, alimlik, şairlik və insanlıq üzvi vəhdət şəklində birləşmişdir.

Hamlet İsayev (İsaxanlı) qaçqınları, yetim uşaqları, maarif və mədəniyyət sahələrini həmişə diqqət mərkəzində saxlayır. O, ata-ana qayğısından məhrum olmuş uşaqlara himayədarlıq edərək, onların ali təhsil almasına və ailə qurmasına, aztəminatlı ailələrin uşaqlarının oxumasına yardım göstərir.

Hər bir işçiyə fərdi yanaşmağı bacarır. Hər bir şəxsin potensial imkanlarının meydana çıxması üçün şərait yaradır. Ədalətli əmək bölgüsü həyata keçirir. Sözü və işi vəhdət təşkil edir, vədinə əməl edir.

Darda qalanlara, ehtiyacı olanlara, xüsusilə istedadlılara hamilik edir. O, təbliğat naminə, siyasi kapital toplamaq naminə xeyriyyəçili etmir, heç vaxt heç yerdə bu barədə danışmır. Xətai rayonundakı kimsəsiz uşaqlara hamilik edəndə də, qaçqın balalarına yardım edəndə də, elm və mədəniyyətimizin inkişafına kömək göstərəndə də ancaq qəlbinin hökmü ilə hərəkət edir.

Hamlet İsayev (İsaxanlı) «Xəzərin sorağında» əsərində yazır: «Mən xeyriyyəçilik edən bir fonda rəhbərlik etməyi, tələbələrə təhsil haqqı üçün pul verməyi, tədqiqatçılara qrant verməyi qat-qat üstün tutardım».

Ulu peyğəmbərimiz Məhəmməd Əleyhissəlam öz vəsiyyətlərində buyurmuşdur: *«Dörd əməli yerinə yetirən üçün*

*Allah behiştdə bir yer hazırlayacaq: yetimlərə əl tutub onları böyüdən; şikəst və əlillərəköməklik göstərən; ata-anasının qayğısına qalan və tabeliyində olanlarla xoş rəftar edən».*

Hamlet İsayev (İsaxanlı) millətimizin gələcəyi olan istedadlı uşaqları tapıb üzə çıxarmağı, onların qayğısına qalmağı özünün ən başlıca mənəvi borcu hesab edir.

- *Hamlet İsayevin (İsaxanlının) qurucusu və rektoru olduğu Xəzər Universiteti yarandığı ilk gündən Xətai rayonundakı 3 saylı uşaq evinə himayədarlıq edir. Həmin uşaq evində böyümüş 7 tələbə Xəzər Universitetində ödənişsiz təhsil alır.*
- *Uşaq evinin 6 sakininə bütün zəruri ehtiyacları ödənilməklə toy mərasimi keçirilmişdir.*
- *Bilgəhdəki «Qocalar evi», eləcə də Nizami rayonunda yaşayan tənha və kimsəsiz qocalar, ağsaqqallar, müharibə veteranları, Qarabağ əlilləri, şəhid ailələri müntəzəm olaraq Xəzər Universitetinin nəzarətindədir.*
- *Hazırda universitetdə 300-dən artıq qaçqın, məcburi köçkün və aztəminatlı ailədən olan tələbə ödənişsiz və ya böyük güzəştlərlə təhsil alır.*
- *SOS cəmiyyətinin «Dünya» məktəbində təhsil alan 13 şagirdinə xüsusi qayğı göstərilir.*
- *Kar və zəif eşidən uşaqların məktəbəqədər tədris müəssisəsinin maddi bazası Xəzər Universitetinin hesabına yeniləşdirilmişdir.*

Belə misalların sayını xeyli artırmaq olar…

Ulu Peyğəmbərimiz təsadüfi deyil ki, *«Vətəni sevmək imandandır»,* deyirdi. Hamlet İsayev (İsaxanlı) Vətəni təkcə sevməklə kifayətlənmir, həm də onun hərtərəfli inkişafı üçün, dünya xalqları arasında şərəfli yer tutması naminə əsil övlad, əsil oğul fədakarlığı göstərir. Hamlet İsayevin (İsaxanlının) yeganə amalı mənəvi-maddi potensialı ilə doğma xalqın rifahının, intellektual səviyyəsinin yüksəldilməsinə xidmət etməkdir. Bu, alicənablıq və böyüklükdür. Bu, hər şeyin fövqündə durmaq bacarığı, insanlığın uca mərtəbəsində, ali zirvəsində şərəfli yer tutmaq qabiliyyətidir.

Həzrət Əli öz xütbəsində belə buyurmuşdur: *«Könüllər alan könüllərdə anılır, bir məscid, bir kitabxana, bir xəstəxana tikənin adı unudulmaz. Uzun sözün qısası, özü üçün yaşayanın adı qalmaz, malı-mülkü özünə fayda verməz. Xalq üçün yaşayansa, ölsə də anılar, adı-sanı əbədi qalar».*

# NƏSIL. AILƏ

Professor Hamlet İsayev (İsaxanlı) Qarayazıda məşhur olan Hacıbayramlılar nəslindəndir.

Babası İsaxan Hacıbayramlı – Qaçaq İsaxan 20-ci illərin sonu və 30-cu ildə Gürcüstan və Ermənistan ərazilərində sovet rejiminə qarşı silahlı üsyan edib, öz şücaəti, mərdliyi və yenilməzliyi ilə nəsillərin yaddaşına yazılıb. Qaçaq İsaxan haqqında aşıqlar dastanlar yaratmış, 100 illiyi Azərbaycan və Gürcüstanda böyük təntənə ilə keçirilmişdir. Xalq qəhrəmanının mübarizə ilə dolu həyatı və fəaliyyəti bədii əsərlərdə və elmi tədqiqatlarda öz geniş əksini tapmışdır.

Stalin və Beriyanın İsaxan hərəkatından çəkindikləri və ona qarşı güclü ordu və gizli casus şəbəkəsi tətbiq etdikləri elmi mənbələrdən, arxiv materiallarından yaxşı məlumdur.

Nənəsi Zeynəb uşaqları və qohum-əqrabaları ilə 2 il Qazaxıstan və Qırğızıstana sürgün edilmişdir.

Atası Abdulla İsayev uzun illər Kosalı kənd orta məktəbində riyaziyyat müəllimi işləyib, gəncliyindən el-obanın hörmətini qazanmış ziyalı kimi tanınıb.

Həyat yoldaşı Nailə xanım İsayeva Qubada anadan olub, Rus dili və Ədəbiyyatı İnstitutunu bitirib, həmçinin musiqi təhsili var, mahnılar bəstələyir. Hazırda «Dünya» məktəbinin direktorudur.

Dörd övladı var. Onlar savadlı, beş-altı dil bilən, vətənpərvər və təvazökar insan kimi tərbiyə alıblar.

Böyük qızı Aygün orta məktəbi Qızıl medalla bitirib, riyaziyyat və menecment üzrə magistr təhsili alıb.

İkinci qızı Zeynəb orta məktəbi Gümüş medalla bitirib, ali tibb təhsili alıb.

Üçüncü qızı Aytən iqtisadiyyat və menecment üzrə magistr təhsili alıb. Şahmat üzrə Azərbaycan yığma komandasının üzvü olub.

Kiçik qızı Ülkər isə psixoloq olmaq istəyir.

# HAMLET İSAYEV (İSAXANLI) HAQQINDA ƏSƏRLƏR

Professor Hamlet İsayevin (İsaxanlının) çoxcəhətli fəaliyyəti müxtəlif müəlliflər tərəfindən yazılmış bədii, publisistik və elmi məqalə və kitablarda öz geniş əksini tapmışdır.

Fuad Tanrıverdiyevin 1997-ci ildə nəşr olunmuş «Hamlet İsaxanlı: Alim və qurucu ömrü» kitabında alimin həyat və fəaliyyəti hərtərəfli araşdırılmışdır. Bununla yanaşı Azərbaycanda, Amerika Birləşmiş Ştatlarında, Kanadada, Rusiyada, Türkiyədə, Gürcüstanda, İranda və başqa ölkələrdə alim, yazıçı, şair və jurnalistlər onun barəsində çoxsaylı məqalələr yazıb dərc etdirmişlər.

Ölkəmizdə və xaricdə nəşr olunmuş bir çox monoqrafiya və elmi məqalələrdə professor Hamlet İsayevin (İsaxanlının) əsərlərinə istinad edilmiş və elmi fəaliyyəti layiqincə qiymətləndirilmişdir. Eyni zamanda Qərb və Şərq aləmində, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə onunla dəfələrlə müsahibələr aparılmış, alim çoxsaylı radio və televiziya verilişlərinin qonağı olmuşdur. Onlardan bu kitabçada bəzi iqtibaslar aldıq…

Şairlərdən Nəriman Həsənzadə, Hüseyn Kürdoğlu, Müzəffər Şükür, Şahin Fazil, Səadət Buta və başqaları Hamlet İsayevə (İsaxanlıya) xüsusi şeirlər həsr etmişlər.

Onun bədii yaradıcılığı haqqında Azərbaycanda professor Camal Mustafayev, Manaf Süleymanov, Mövlud Süleymanlı, Mirabbas Qasımov, Vidadi Babanlı, Nəriman Həsənzadə, Zəlimxan Yaqub, Kamran Nəzirli və digər çoxsaylı müəlliflər, Türkiyədə Mətin Turan, Çində Van Dzen Bo, İranda, Gürcüstanda, Rusiyada müxtəlif elm və sənət adamları dəyərli məqalələr yazıb dərc etdirmişlər.

Bununla yanaşı rəssamlıq, xalçaçılıq və mozaikaya

dair sənət nümunələrində Hamlet İsayevin (İsaxanlının) parlaq obrazı yaradılmışdır.

## Yazılanlardan seçmələr

***Main Afza (Blumenborq, ABŞ):***

*«Hamlet İsayev (İsaxanlı) Azərbaycan Respublikası, böyük Azərbaycan xalqı üçün çox qiymətli töhfələr vermiş əvəzolunmaz bir şəxsiyyətdir. O, görkəmli alim və maarifçidir.*

*Hamlet müəllim qeyri-adi uzaqgörən, yorulmaz və çox istedadlı qurub-yaradan bir insandır. O, dərin hörmət və etibar qazanmış və çoxlu ardıcılları olan parlaq bir liderdir!»*

***Nairə Tohidi,***
***professor,***
***(Los-Ancelesdəki Kaliforniya Universiteti, ABŞ):***

*«Professor Hamlet İsayevin (İsaxanlının) adı Azərbaycan xalqının islahatlar dövrü mərhələsində, xüsusən təhsil sisteminin inkişafında gənc və müstəqil Azərbaycanın tarixinin müasirləşmə, tərəqqi və demokratiya pionerləri arasında olacaqdır».*

***Raymond Mak Qi***
***(Los-Ancelesdəki Kaliforniya Universiteti, ABŞ):***

*«Hamlet müəllim bənzərsiz alim-rektordur. O, bir dəyərli alim kimi riyaziyyat elminə əvəzsiz töhfələr vermişdir. Dağılmış Sovet İttifaqından sonrakı keçid dövründə o, orijinal bir universitet yaratmışdır. Xəzər Universitetini yaratmaqla bu regionda Hamlet müəllim yeni dəyişikliklər, yeni fikirlər dövrünün pioneri oldu.*

*Hamlet müəllimin rəhbərlik etdiyi Xəzər Universitetində yaratdığı abi-hava onu ali təhsil ocaqları içərisində ən yüksək pilləyə qaldırmışdır. Burada işləmək və oxumaq böyük xoşbəxtlikdir».*

***Van Dzen Bo,***
***«Çin gəncliyi» qəzetinin xüsusi müxbiri:***

*«...Mən Xəzər Universitetinin rektoru və yaradıcısı, fizika-riyaziyyat elmləri doktoru, professor Hamlet İsayevə (İsaxanlıya) bir insan kimi, bir alim, bir elm fədaisi kimi böyük rəğbət bəsləyirəm. O, olduqca qısa müddət ərzində son dərəcə ürəkaçan nailiyyətlər əldə edib».*

***Uilyam Roy,***
**doktor (Los-*Ancelesdəki* Kaliforniya Universiteti, *ABŞ):***

*«Yeni bir qurum yaratmaq üçün geniş qaynaqları hərəkətə gətirən, tənzimləyən və cəmləşdirən bir şəxsiyyəti təsvir edərkən* sosioloqlar *«*qurum *yaradıcısı»* terminini *işlədirlər. Mən bəzi cəmiyyətlərdəki istedadlı və görkəmli şəxsiyyətlər haqqında sinifdə, yaxud həmkarlarımla müzakirə apardıqda qurum yaradıcısı misalı kimi həmişə Hamlet İsayevi (İsaxanlını) göstərirəm. O, Sovetlər Birliyi dağıldıqdan sonra və uzun illər sürən müharibədən sonra zəifləmiş bir cəmiyyətdə ali təhsil verən bir qurum yaratmağa nail oldu.*

*Filosoflar və jurnalistlər Xəzər Universitetinə təriflər yazmalıdırlar. Çünki bu universitet, həqiqətən, insan ruhunun yüksəkliyinin əyani təsdiqidir. Sosioloqlar isə belə bir qurumun nədən başqasında deyil, məhz bu cəmiyyətdə yarandığını araşdırmalıdır. Bu suala cavabın böyük hissəsi, sözsüz ki, Hamlet İsayev (İsaxanlı) kimi qabiliyyətli bir şəxsin olmasıdır».*

***Yezdi Bhada,***
***doktor, Corciya Dövlət Universiteti, Biznes idarəçiliyi proqramının direktoru (ABŞ):***
*«Mənim şübhəm yoxdur ki, professor Hamlet İsayevin (İsaxanlının) rəhbərliyi altında «Xəzər» regionda ən yaxşı ali məktəbə çevriləcəkdir. Onun ətraf gerçəkliyi başa düşməyi, məharətli rəhbərliyi, iti mühakimələri uğur qazanmaq üçün əsas göstəricilərdir».*

***Tomas Yanq,***
***Böyük Britaniyanın Azərbaycandakı səfiri:***
*«Rektor, professor Hamlet İsayevin (İsaxanlının) ağıllı rəhbərliyi altında kollektiv və tələbələr təhsildə təkmilləşmək üçün daim yeni yollar axtarırlar».*

***Hafiz Paşayev***
***Azərbaycan Respublikasının ABŞ-dakı səfiri:***
*«Hamlet müəllimin fəaliyyəti respublikamızın ictimaiyyətinə yaxşı bəllidir. Öz elmi işini riyaziyatçı kimi başlayıb, həmin sahədə dəyərli nəticələr əldə etdikdən sonra o, elm, təhsil, humanitar və ictimai sahələrdə daha geniş fəaliyyətə qoşulmuş və ölkəmizdə keçirilən islahatlar üçün əhəmiyyətli konkret işlər görmüşdür.*

*Professor Hamlet İsayev (İsaxanlı) elmin və təhsilin inkişafında sərhədsiz mübadilə və ünsiyyətin vacib olmasını hələ Sovet dövründə yaxşı dərk edib, Azərbaycan elminin xaricdə tanınması üçün əlindən gələni etmişdi. Həmin təcrübə, yaratdığı əlaqələr inanıram ki, hazırda Xəzər Universitetinin işlərində əvəzsizdir.*

*Onun Amerika universitetləri ilə birgə proqramlar üzrə müvəffəqiyyətlə apardığı işləri qeyd edərək, məmnuniyyətlə yada salıram ki, səfirliyimizin müdaxiləsi ilə ABŞ hökumətinin Azərbaycanda maliyyələşdirdiyi ilk təhsil layihəsi*

*məhz Hamlet müəllimin yaratdığı və rəhbərlik etdiyi universitetlə bağlı olmuşdur».*

***Rza Mahmudov,***
***professor:***

*«Tarixdə müdrik insanlarla bir dövrdə yaşamağın özü xöşbəxtlikdir. Lakin belə şəxslərlə, belə insanlarla lap uşaq çağlarından bir yerdə olmaq, bir yerdə böyümək, həyatın paralel anlarını birgə yaşamaq, məncə, ikiqat xöşbəxtlikdir. Haqqında söhbət gedən görkəmli alimimiz, professor İsayev (İsaxanlı) Hamlet Abdulla oğludur».*

***Zəlimxan Yaqub,***
***xalq şairi, millət vəkili:***

*«Hamlet İsaxanlı - gözəl insan və böyük alim!*

*Bu qün varlığıyla vətəninə bağlı əsil Azərbaycan vətəndaşı! Yüksək intellekt, böyük ağıl, güclü zəka, nadir istedad sahibi!*

*Təkcə Gürcüstan azərbaycanlılarının deyil, təkcə Azərbaycan Respublikasının deyil, dünya azərbaycanlılarının ən şöhrətli nümayəndələrindən biri!*

*Dünyanın bir çox ölkələrində Azərbaycan elminin şərəfini göylərə qaldıran, alın tərinə, əl qabarına, yuxusuz gecələrə arxalanan sadə və səmimi, ciddi və qayğıkeş, tələbkar və inadkar, namuslu elm fədaisi! Kökünə, nəslinə, torpağına, ədəbiyyatına, tarixinə, musiqisinə dərindən bələd olan, ömrünü elmi, bədii, siyasi, psixoloji, tarixi axtarışlara həsr edən bir neçə sahənin yorulmaz tədqiqatçısı! Dünyanın müxtəlif millətlərə və ölkələrə məxsus olan ən böyük alimlərini heyrətə gətirən Vətən oğlu!*

*Borçalı azərbayçanlılarının qəhrəmanlıq tarixinə şanlı səhifələr yazmış igid və məğlubedilməz İsaxan babanın adına, tərcümeyi-halına layiq olan nəvə, nəslin nüfüzlu davamçısı!*

*Övladlarını da özü kimi elmin sonsuz və müqəddəs üfüqlərində pərvazlandıran ata, gözəl ailə başçısı!*

*«Xəzər» adlı dünya şöhrətli universitetin - elm məbədinin yaradıcısı, rəhbəri, təşkilatçısı!*

*Uğurlar olsun Hamlet İsaxanlıya!!!»*

***Marianna B.Veyrner,***
***Los-Anceles, ABŞ:***

*«...Mən çox yerlərdə olmuşam və çox görmüşəm. Lakin Hamlet İsayevin (İsaxanlının) böyük zəhmət bahasına əldə etdiyi nailiyyətlər heç bir şeylə müqayisəyə gəlməz. Mən onunla tanışlığı həyatımın qismət payı hesab edirəm».*

***Manaf Süleymanov,***
***xalq yazıçısı:***

*«İlk görüşdən ondakı sadəlik, səmimiyyət və xoşniyyət məni valeh etdi.*

*Onun şəxsi mədəni keyfiyyəti, bədnəzərdən iraq fəaliyyəti xalqın övladlarına təhsil vermək, mədəniyyətimizi yüksək zirvələrə qaldırmaq, görünür ki, onun anadangəlmə xasiyyətidir.*

*Hamletin gələcəkdə də uzun illər belə yüksək səviyyədə vətən övladlarını yetişdirməsini ürəkdən arzu edir, ona uzun ömür, yaradıcılıq fəaliyyəti diləyirəm. Əbəs yerə deməyiblər ki:*

*Ayinəsi işdir kişinin, lafə baxılmaz,*
*Şəxsin görünür rütbeyi-əqli əsərindən».*

***İsmət Əhmədov,***
***dosent, Xəzər Universiteti:***

*«Tanış olduğum az bir müddət ərzində Hamlet müəllimdə iki mühüm keyfiyyət aşkar etdim. Bunlardan birincisi, onun müstəqil olmasıdır. İkıncisi, Hamlet müəllimin hamı-*

*dan fərqli olaraq, ən çətin anlarda belə şikayət etməməsidir. Bu keyfiyyət də məncə, onun müstəqilliyindən, məsələni öz gücü ilə həll etmək istədiyindən və inamından irəli gəlir».*

***Mirabbas Qasımov,***
***akademik:***

*«Onun müstəqilliyi, təşəbbüskarlığı, yeni elm sahələrinə, ehtiyat etmədən, cəsarətlə girişməsi Hamlet İsayevdə (İsaxanlıda) tələbəlik vaxtından müşahidə* etdiyim *və xoşuma gələn cəhətlərdəndi.*

*Ümumiyyətlə, Hamlet İsayev (İsaxanlı) ən geniş riyazi biliyə sahib olan alimlərimizdəndir. O, müasir riyaziyyatın inkişaf meyillərini, istiqamətlərini hiss edən, müxtəlif, bəzən bir-birindən çox uzaq sahələrdə dərin biliyə sahib bir riyaziyyatçıdır, geniş əhatəiliyi ilə diqqəti cəlb edir. Hamletlə lap tələbəlik illərindən bir çox elmlərin çeşidli sahələrindən saatlarla müzakirə aparmaq olurdu.*

*Eyni zamanda, onun tarix, təhsil siyasəti, siyasi və humanitar elmlər sahəsində Hamlet İsaxanlı adı altında apardığı tədqiqatları, elmi və elmi-publisistik yazıları tək-tək alimlərə xas olan hərtərəflilik nümunəsidir.*

*Hamlet müəllimin təşkilatçılıq qabiliyyəti isə artıq hamıya bəlli, hamını heyran edən bir cəhətdir.*

*Hamlet İsayev (İsaxanlının) təsis etdiyi, inkişaf etdirdiyi Xəzər* Universiteti *isə bənzərsizdir, Azərbaycanda və yaxın ölkələrdə ən yüksək səviyyəli elm və təhsil ocağı kimi məşhurlaşmışdır.*

*Enerjisi aşıb-daşan, yeni addımlar atmağı özündə bir adətə çevirən Hamlet İsayevdə (İsaxanlıda) dəyişməyən, həmişəki kimi qalan cəhət isə insanpərvərlik, gülərüzlülükdür, yaradıb-qurmaq həvəsidir».*

***Camal Mustafayev,***
***professor:***

*«İdrak fəallığı insan varlığını ruhən zənginləşdirən, nəcibləşdirən amildir. Belə batini yetkinlik öz həyatiliyini səmərəli fəaliyyətdə bildirir. Yaradıcı alimlərin əməyi bu cəhətdən xüsusilə yüksək qiymətləndirilir. Burda Hamlet İsayev (İsaxanlı) özünəməxsus görkəmli yer tutur.*

*Mən onun ömür yoluna dünyaya gəldiyi gündən bələdəm. Onda uşaqlıq dövründən bilmək, mütaliə eşqi müşahidə edilirdi.*

*Hamlet riyaziyyatla məhdudlaşmır; onun maraq dairəsi olduqca əhatəlidir. Rasional təfəkkürlə mənəvi mədəniyyəti özündə bir vəhdətdə birləşdirib. Avropa, Şərq, rus elmi, bədii fikrindən səmərəli faydalanır. Ancaq bu mənbələrdən əxz etmək onu milli kökümüzdən ayırmır. Əksinə, mənəvi varlığımızı müqayisəli şəkildə dərindən anlamağı şərtləndirir. Hamlet musiqimizi, şeirimizi, folklorumuzu müfəssəl bilən, duyan ziyalıdır. Bu xüsusda onunla zaman-zaman maraqlı söhbət edirik. Belə söhbətlərdə zəngin estetik zövqə malik olduğunu duyursan».*

***Elimxan Mahmudov,***
***professor:***

*«Hamleti hamımıza sevdirən xüsusiyyətlərdən biri də onun olduğu kimi görün, göründüyün kimi ol prinsipi ilə, haqsızlığa, ədalətsizliyə qarşı mübarizə etmək prinsipi ilə yaşamasıdır. Məhz bu baxımdan daxildən gələn bir atəşlə, sevgiylə, vətəndaşlıq əzmiylə yoruldum demədən, ruhdan düşmədən çalışır bu Böyük Dost. Bu nəcib insan! Böyük tədqiqatçı! Sanki tarixin qara küləklərinin, qasırğalarının xalqımıza, yurdumuza gətirdiyi bəlalara, qanlara, qaranlıqlara maarif işığı yandırmaqla cavab vermək, etirazını bildirmək istəmişdir bu Böyük Qurucu!».*

***Nijad Mikayılzadə,***
**dosent, *Xəzər* Universiteti,**
***Azərbaycan Dövlət* Tibb Universiteti:**

*«Xəzər Universitəsi zəmanəmizin tələbindən yaranıb. Yeniliklərin uğur qazanmasında şəxsiyyət böyük rol oynayır desəm, Amerika kəşf etmərəm. «Xəzər»in gələcəyini mən bilavasitə universitənin rektoru, professor Hamlet İsayev (İsaxanlı) ilə bağlayıram. O, erudisiyalı alim, qabiliyyətli təşkilatçı, ən mühümü, fövqəladə dərəcədə təvazökar və sadə insan xüsusiyyətlərini özündə birləşdirir. Çox sevindirici haldır ki, universitədə xeyirxahlıq və qayğıkeşlik, insanlara həssas münasibət, insanın yaradıcılıq imkanlarının açılması və çiçəklənməsi üçün əlverişli şərait hökm sürür».*